# AZWOOL roof 2

# DAM ÜÇÜN İSTİLİK VƏ SƏS İZOLYASİYA LÖVHƏSİ, DAŞ YUNU



## Məhsul haqqında

AZWOOL roof 2 - dam üçün istilik və səs izolyasiya lövhəsi daş yunu əsaslı izolyasiya materialıdır. Bu məhsul həm düz, həm də profilli dam sistemlərində istifadə üçün nəzərdə tutulub. Yüksək sıxlığa malik olduğundan istilik və səs izolyasiyası üçün əlverişlidir, eyni zamanda mexaniki dayanıqlığı kifayət qədərdir.



## İstifadə sahələri

Bu məhsuldan:

• ikiqatlı yastı damın üst qatında;

• yüklənməyən və azyüklü damlarda istifadə olunur.

## Üstünlükləri

• Yüksək elastiklik qabiliyyəti;

• Artırılmış mexaniki möhkəmlik;

• Yanğın təhlükəsizliyi;

• Enerji səmərəliliyi.

## İstifadə qaydaları

***Səthin hazırlanması.*** Quraşdırılacaq səth (dam örtüyü) təmiz, quru və bərabər olmalıdır. Yağ, toz, tikinti qırıntıları və digər maneə yarada biləcək maddələr təmizlənməlidir.

***Tətbiqi.*** Lövhələr kərpicvari (şahmatvari) şəkildə yerləşdirilməlidir – bu, istilik itkisinin qarşısını alır. Lövhələr boşluqsuz və sıx yerləşdirilməlidir. Üzərində gəziş olmayan damlarda bu qat son qat kimi istifadə edilə bilər. Lövhələr uyğun uzun-

luqlu dübellərlə səthə bərkidilir (adətən 5-6 ədəd/$m^2$). Əgər əlavə yük gələcəksə, üst qat olaraq sıxlığı yüksək material tətbiq olunmalıdır. İstilik izolyasiyasının üzərinə hidroizolyasiya qatları (rulon material, PVC membran və s.) çəkilir. Bu qatlar məhsulu sudan və atmosfer təsirlərindən qoruyur.

## Texniki göstəricilər

| | | |
|---|---|---|
| **İstilik keçiricilik, Vt/mK** | 0,038/0,040/ 0,042/0,043 | |
| **10% deformasiyada sıxılmaya qarşı davamlılıq, Kpa** | <70 | |
| **Konsentrasiya olunmuş yükləmə N** | 700 ≥ 1000 | |
| **Üzvü maddələrin tərkibi, %** | <4,5 | |
| **Qısa müddət ərzində (24 saat) suyun hopması kq/$m^2$** | <1 | |
| **Uzun müddət ərzində (28 gün) suyun hopması kq/$m^2$** | <3 | |
| **Yanğına qarşı dayanıqlılıq** | A1 sinifli | |
| **Sıxlıq, kq/$m^3$** | 180 (±15) | |
| **Uzunluq, mm** | 1200 | 1200 |
| **Eni, mm** | 600 | 600 |
| **Qalınlıq, mm** | 30 | 40 |
| **Lövhələrin qablaşdırmada miqdarı əd.** | 7 | 5 |
| **Altlıq üzərində miqdarı, əd.** | 44 | 48 |
| **Qablaşdırmada miqdarı, $m^3$** | 0,151 | 0,144 |
| **Qablaşdırmada miqdarı, $m^2$** | 5,040 | 3,600 |

## Sərfiyyat

Lövhə ölçüsü: 1200 × 600 mm — 1 lövhə 0,72 $m^2$ sahəni örtür.
Sərfiyyat: 1,4 lövhə/$m^2$.

## Saxlama müddəti və qaydası

İstehsal tarixindən etibarən düzgün şəraitdə və qablaşdırmada saxlamaqla 12 ay.